# O həmin Ramizdi, o həmin Kərəm!

## Yazmaqdan başqa çarəsi olmayan şair!

***"Keçdim uzun-uzun yolları gəldim..." Maraqlıdır ki, bu "uzun-uzun yolları" keçib gələn təkcə o deyildi; özü də etiraf edir ki, onların nəslində "xeyli adamı şeir yazmaq 'bədbəxt elədi" və kənddə yeddi-səkkiz evi birləşdirən bir nəsildə altı nəfər şeir yazan kimi tanındı". Uzundan-uzun yolları keçib gələn şairi mənim kimi yəqin ki,başqa tanımayanlar da var. Elə mən də əlimə 2015-ci ildə işıq üzü görmüş "Mən sözdən asıldım" kitabı düşüncə,təəssüf hissiylə etiraf edim ki, Azərbaycan ədəbi mühitində belə bir istedadlı qələm adamının olduğundan bixəbərdim.***

Bəs o "adıbəlli" nəsildəömrünü şeirə bağlayan "bədbəxt olmuş" altı qələm adamı kimdir görəsən?Mənim üçün maraqlı olan bu faktın ipini əldən buraxmadım. Kitabın arxasında müəllif haqqında verilən məlumat karıma gəldi bu yerdə: "Ramiz Kərəm (Ələkbərov Ramiz Kərəm oğlu) 1961-ci ildə Gədəbəy rayonunun Ataxal kəndində dünyaya göz açıb". Deyəsən, bu bilgilərdən nəsə işıq ucu görsənir axı! Dəyərli şairimiz Musa Ələkbərlinin soyadı "Ələkbərli" və qardaşı şair Bəhlul Ataxallının "Ataxallı" təxəllüsü bu qənaətə gəlməyə əsas verdi ki, bu nəsil elə şeir yazan həmin "bədbəxt nəsil"dir ki, durub. Gəray Göyyürdadlı şair də bu "qardaşlar üçlüyü"nə daxildir. Deməli, Ramiz Kərəm (Ələkbərov Ramiz Kərəm oğlu) də bu nəsildən və digər üç şairdən biridir.

Dözməyib tanınmış, sevilən şair dostumuz Musa Ələkbərliyə zəng elədim. Xoş-beşdən sonra zəng etməyimin səbəbini dedim ona. "Lap yaxşı eləyib zəng eləmisən, - söylədi. Fəxrlə də əlavə elədi: – Bəli, Ramiz Kərəm bizimlə,atamla əmioğludu, əmiuşağıdı. Görürsən də, bizim nəsil necə şairlər yetişdirib!" Sevindim. Deməli zənnimdə yanılmamışdım. Deməli, sazlı-sözlü Gədəbəy torpağı həqiqətən də, əsl istedadlar yurdudur ki, durub! Bu yurdun torpağı, suyu, havası təbiət etibarilə bənzərsiz olduğu kimi, istedadlı insanları da şairlik təbinə və yaradıcılıq təbiətinə görə əvəzsizdir, orijinaldır.

Deməli, belə bir şairanə təbiətin şeiriyyatla əlləşən, "yazmaqdan başqa çarəsi qalmayan" şair oğlunun yaradıcılıq yolu ilə tanış olmağa dəyər. Özü də, sözün əsl mənasında! Ramiz Kərəm kimi istedadlı şairi Azərbaycan ədəbiyyatına bəxş eləyən Ələkbərlilər nəslinin kötüklərinə bir daha rəhmət diləyib, üz tutdum şairin iç dünyasına...

***Bu səmimi duyğularla tanış olduqca şahid oldum ki, haqq sözü dilinə gətirdiyinə görə dardan asılanların, "desəm öldürərlər, deməsəm, ölləm" əqidəsinə sadiq qalanların varisi Ramiz Kərəmin "ruhunu yolların üstünə yazması" olduqca maraqlı və özünəməxsus deyim tərzindən, ifadəetmə bacarığından xəbər verir. Adətən, heca şeirinin qəlib və ölçülərində yazan müasir söz sahiblərinin sanki tükəndiklərini hiss edirik. Lakin haqqında söz açacağımız qələm dostumuzun bu sahədəki məharətini görməmək, yaxud dəyərləndirməmək insafsızlıq olardı.*** Təvazökarlıq və səmimiyyətlə yazılmış




müəllif sözü ilə açılan kitabda Ramiz Kərəmi "bədbəxt eləyən" şeir yazmaq xəstəliyinə mübtəla olma səbəblərini duyub hiss eləmək o qədər də çətin deyildir. Çünki aydan arı, sudan duru qəlb çırpıntılarını bütün səmimiyyətilə poetik sözə çevirmək, şeirə gətirmək üçün təbiətə, insanlara, torpağa, vətənə, yurda, yurddaşa elə Ramiz müəllimin özü qədər içdən bağlı, ürəkdən sədaqətli, qəlbən məhəbbətli olmaq lazımdır. Bu keyfiyyətlər isə istedadlı qələm adamına, duyğulu ürək sahibinə sonradan aşılanan nəsnələr deyil. Şair elə anadan şair doğulur, şair ömrü yaşayır, şair kimi də əbədiyaşarlıqqazanır – sağlığında da, Haqq dünyasına qovuşduqdan sonra da...

"Ən çox sevdiyim peşə ovçuluqdur. Ali məktəbə qəbul olub oxumasaydım, oxuyub ixtisasıma uyğun sahədə işləməsəydim və hərdənbir cızma-qara etməsəydim, sırf peşə baxımından bəlkə də həmin peşəni seçərdim. Axı, hər kəs bir peşənin sahibi kimi tanınmalıdı. Ovçuluqda (xüsusilə dağ çayında balıq ovu) məni çəkən qəribə bir romantika, cazibədarlıq var, qəddarlıq tərəfini nəzərə almıram. Bu hiss bəlkə də təbiətə bağlılıqdan irəli gəlir..." – yazır müəllif. Biz də şairin bu sözlərini bütün səmimiyyətilə qəbul etsək belə, sevinirik ki, nə yaxşı Azərbaycan poeziyası şeirə könül verərək, bu fövqəlşümul sənətə əbədi bağlanan bir şairi balıq ovçusu peşəsindən ayırıb biz oxuculara şair olaraq bəxş etdi. Budur poeziyanın qüdrəti, budur ecazkar söz sənətinin əsrarəngizliyi!

***Özünü poeziya yolunun yolçusu saymır, çünki "yolçu həmişə yolda olar". "Mən yolda hərdənbir göründüm və bu kitab da daha bir görünməyimdi..." Nə deyəsən? Necə öpməyəsən bu təvazökar şairin qəlbindən və qələmindən?! Başqa bir təqdiredici məqamı diqqətə çatdırmaqdan da özümü saxlaya bilmirəm: "Nə yaxşı ki, şair "bura qədər dünyaya sözünü deyə biləcəyi qədər demiş və deyə biləcəyindən artıq yazmağa cəhd etməmişdir"". Əks halda, böyük mütəfəkkirimiz Nizami Gəncəvinin məşhur:***




**Sözün də su kimi lətafəti var,**
**Hər sözü az demək daha xoş olar.**

- deyimi özmənasını bu qədər illər ərzində bu ucalıqda saxlaya bilərdimi?! Məhz bu xüsusiyyətləri imkan vermir ki, şair ağlına, yaxud beyninə gələn hər ötəri sözü, bişməmiş, çiy deyimi sağa-sola səpələsin. "Bahardan könlündə qalan nəğmələri" – dürr kimi, inci kimi yığıbsaxlayıb sinəsində ulularımızın təbərrik saxlancısayaq, gərək bildiyi zaman çıxarıb üzə.

Deyəndə ki:

**Bərəsində gözləyən var hər ovu,**
**Göz açmamış düşür ömrün qırovu.**
**Bir budaqda çimir aldıq bir hovur,**
**Quş gözündə yuxu kimi yaşadıq...**

– bir çimirlik həmin quş yuxusunu elə budaqdaca alan şair,"Taleyin açdığı qapılar"dan boylanıb, "Hər şeyi əlindən alınmış adam"ı görəndə bilirsinizmi hansı hissləri keçirir?! –

**Onsuz da hayana getsən bu dünya,**
**Sevincin azını qıyacaq sənə.**
**Çaylar çınqılını, göylər qarını,**
**Yollar da tozunu qıyacaq sənə,**
**Çöllər nə qıyacaq deyə bilmərəm...**

Və...birdən-birəelə özünün dediyi kimi, "Qızılgül koluyla dərdləşən oğlan"a çevrilir Kərəm kişinin oğlu Ramiz:

**Dərdi çəkəmməsən, çətindi bir az,**
**Çəkməyi öyrənsən, umud var hələ.**
**Hər gün tut üzünü qısır göylərə,**
**Yağış yağmasa da, bulud var hələ...**

Beləcə, ümidin əlindən tutub göylərə doğru yol başlayır şair. Üz tutduğu göylər özü kimi saf, müqəddəs ruhlar dünyasının qapılarını açaraq onu qoynuna səsləyir. Axı, göylər də bilir ki:

**... Qapılar döymədi, baş aparmadı,**
**Abrını qorudu, bərkə varmadı.**
**Çoxu bacaranı o bacarmadı,**
**Nə ağa yarıtdı, nə haqq istədi.**

Bir də, bu cür təmiz ruhlu, saf əqidəli Allah adamı ilə yola getməyə, yol getməyə nə var ki! Məhz buna görə:

**Ramiz hər dalğada batası deyil,**
**Axşam itirsən də, səhər taparsan.**

Çünki bizim Ramiz belə Ramizdi: haqqın yolunu tutan, haqqa könül verən, hər yerdə və hər əməldə haqqı axtarıb tapmağa çalışan "BU ADAM"! HAQQ ADAMI – RAMİZ KƏRƏM!

**Görsə də quyruqda sürünənləri,**
**Namərq ətəyinə bürünənləri,**
**Adam görkəmində görünənlərin**
**Elə hamısında ürək axtarır!**

Bizim hər yerdə və hər zaman və hər kəsdə ürək axtarışında olan şair Ramiz Kərəmdən bir təmənnamız var: Poeziya yolunda hərdənbir yox, oxucunun istədiyi, arzuladığı bütün zamanlarda görünün ki, bulaq suyu kimi dumduru şeirlərinizi istədiyi anda tapa,su kimi, hava kimi damarlarına, ciyərlərinə çəkə bilsin. Axı, buna onun hər daim ehtiyacı var!

**Qiymət MƏHƏRRƏMLİ,**
**Filologiya üzrə fəlsəfə doktoru, şair-publisist.**